# "Şuşa ili"nə həsr olunmuş kitabların təqdimatı keçirildi



Sentyabrın 23-də AYB-nin Natəvan klubunda Kürdəmir Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Xalisənin "Zəfərin amili", Aygün Bayramlının "Yeni bir səhər" adlı kitablarının təqdimat mərasimi keçirildi. Tədbiri Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli açdı. Bildirdi ki, təqdim olunan kitabın hər ikisi kövrək, səmimi duyğularla qələmə alınıb. Əsasən, həyatdan gələn mövzular sərgilənib: "Hər iki kitabın araya-ərsəyə gəlməsinə verdiyi dəstəyə görə Mədəniyyət Nazirliyinin rəhbərliyinə və Kürdəmir Regional Məddəniyyət İdarəsinin rəhbəri Faiq Xudanlıya yazarlar adından minnətdarlığını bildirirəm".

Öz növbəsində Faiq Xudanlı da tədbirin keçsirilməsinə yaratdığı şəraitə görə AYB rəhbərliyinə, şəxsən Anar müəllimə, eləcə də Elçin Hüseynbəyliyə, Xəyal Rzaya təşəkkürünü çatdırdı. Ədəbi mühitin regional - mərkəz arası əlaqələndirilməsinin vacibliyini vurğulayan Faiq Xudanlı qeyd etdi ki, Xalisə xanım öz timsalında bir şəhid qadınının yaşadığı hissləri bütün dolğunluğu ilə əks etdirib "Zəfərin amili" kitabında.



Tanınmış yazıçı Seyran Səxavət təqdim olunan kitabların redaktoru, şair Ramil Əhməd, AYB-nin mətbuat katibi, şair Xəyal Rza və başqaları da çıxış edərək təqdim olunan kitabların məziyyətlərindən söz açdılar.

Sonda Xalisə və Aygün Bayramlı çıxış edərək yeni nəşrlərin işıq üzü görməsinə dəstək olanlara dərin təşəkkürlərini bildirdilər, təəssüratlarını bölüşdülər.

**Sərvaz**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 24 sentyabr. S. 12.**